DOI: doi.org/10.61226/12.2.2023/20252.6
UOT: 336.71
Kənan ATAYEV
Bakı Biznes Universiteti, doktorant
atayevkenan29@gmail.com
https://orcid.org/ 0009-0006-0690-5320

RƏQƏMSAL BANK ƏMƏLİYYATLARININ UÇOT SİSTEMİNDƏ ƏKS ETDİRİLMƏSİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

Xülasə: Bu məqalədə rəqəmsallaşmanın Azərbaycan bank sistemində uçot və hesabat proseslərinə təsiri təhlil olunur. Rəqəmsal bankçılığın inkişafı nəticəsində ənənəvi bank əməliyyatları getdikcə rəqəmsal kanallara keçir və bu dəyişiklik maliyyə inklüzivliyini artırmaqla yanaşı, bank əməliyyatlarının daha şəffaf, sürətli və etibarlı şəkildə həyata keçirilməsinə şərait yaradır. Ölkədə elektron ödənişlərin və onlayn əməliyyatların həcmi hər il artmaqdadır. Rəqəmsal əməliyyatların uçotu Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (İFRS) uyğun aparılır və bu sahədə həm qanunvericilik, həm də texnoloji infrastruktur gücləndirilib. Elektron əməliyyatların uçotu real vaxt rejimində, mərkəzləşdirilmiş sistemlər vasitəsilə, minimum insan müdaxiləsi ilə həyata keçirilir. Bununla yanaşı, rəqəmsal əməliyyatların artması şəffaflığı artırsa da, kibertəhlükəsizlik və texnoloji asılılıq kimi yeni risklər də yaradır. Məqalə nəticəsində aydın olur ki, rəqəmsallaşma Azərbaycanın bank uçotu sistemində uğurlu transformasiyanı nümayiş etdirir və bu sahədə davamlı təkmilləşmə ilə beynəlxalq səviyyədə rəqabət qabiliyyətli model qurula bilər.
Açar sözlər: rəqəmsal bankçılıq, beynəlxalq maliyyə hesabat standartları, uçot sistemi, daxili nəzarət, kibertəhlükəsizlik.

Kenan ATAYEV

ANALYSIS OF THE CURRENT STATUS OF REFLECTION OF DIGITAL BANKING TRANSACTIONS IN THE ACCOUNTING SYSTEM

Abstract: This article analyzes the impact of digitalization on the accounting and reporting systems of Azerbaijan's banking sector. With the development of digital banking, traditional banking transactions have increasingly shifted to digital platforms, enhancing financial inclusion and enabling faster, more secure, and transparent financial operations. The volume of electronic payments and online transactions is growing steadily across the country. The accounting of digital operations is carried out in accordance with International Financial Reporting Standards (IFRS), supported by legislative and technological advancements. Transactions are recorded in real-time through centralized systems with minimal human intervention. While digital transformation enhances transparency and improves operational efficiency, it also introduces risks such as cybersecurity threats and dependency on technology. The study reveals that Azerbaijan has successfully integrated digitalization into its banking accounting systems. The experience shows that with ongoing improvements and effective risk management, the country can become a regional leader in digital banking accounting practices.
Key words: digital banking, international financial reporting standards, transaction recording, internal control, cybersecurity

Кенан АТАЕВ

АНАЛИЗ ТЕКУЩЕГО СОСТОЯНИЯ ОТРАЖЕНИЯ ЦИФРОВЫХ БАНКОВСКИХ ОПЕРАЦИЙ В СИСТЕМЕ БУХГАЛТЕРСКОГО УЧЕТА

Абстракт: В данной статье рассматривается влияние цифровизации на систему учета и отчетности банковского сектора Азербайджана. В результате развития цифрового банкинга традиционные банковские операции постепенно переходят на цифровые платформы, что способствует повышению финансовой инклюзии, а также делает операции более прозрачными, быстрыми и надежными. Объем электронных платежей и онлайн-операций в стране ежегодно растет. Учет цифровых операций ведется в соответствии с Международными стандартами финансовой отчетности (IFRS), при этом усиливаются как законодательные, так и технологические аспекты. Все операции регистрируются в режиме реального времени в централизованных системах с минимальным участием человека. Несмотря на то, что цифровые технологии повышают прозрачность, они также порождают новые риски, такие как киберугрозы и технологическая зависимость. Результаты исследования показывают, что Азербайджан успешно адаптировал цифровые инструменты в системе банковского учета. При эффективном управлении рисками и дальнейшем развитии инфраструктуры страна может стать одним из лидеров в области цифрового банковского учета на региональном и международном уровнях.

Ключевые слова: Цифровой банкинг, международные стандарты финансовой отчетности, система учета, внутренний контроль, кибербезопасность

Giriş

Müasir dövrdə rəqəmsallaşma bank sisteminin fəaliyyətini kəskin şəkildə dəyişməkdədir. Ənənəvi nağd və kağız üzərində aparılan bank əməliyyatları sürətlə rəqəmsal platformalara keçir. Bu transformasiya yalnız qlobal meyillərin təzahürü olmayıb, həm də ölkəmizdə ödəmə sistemlərinin səmərəliliyini və əlçatanlığını artırmaqla daha rəqabətli və şəffaf maliyyə bazarı formalaşdırmaq məqsədi daşıyan strateji təşəbbüslərin bir hissəsidir. İnkişaf etməkdə olan bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da rəqəmsal maliyyə xidmətləri maliyyə inklüzivliyinin artmasına təkan verir. Bu xidmətlər maliyyə resurslarına çıxışı genişləndirməklə bank sistemindən kənarda qalan əhali qruplarını formal maliyyə sisteminə cəlb etməyə imkan yaradır. Məsələn, ödəniş xidmətlərinin əlçatanlığının yaxşılaşdırılması daha çox insanın bank hesabı, kredit və sığorta kimi maliyyə məhsullarına çıxış əldə etməsinə şərait yaradaraq ümumi maliyyə inklüzivliyini gücləndirir.

Rəqəmsal transformasiya istiqamətində atılan addımlar xüsusilə son illərdə Azərbaycan bank sektorunda öz nəticəsini göstərir [1]. Ölkədaxili ödəniş kartları il əaparılan əməliyyatlar arasında qeyri-nağd tranzaksiyaların payı 2023-cü ildə kəskin artaraq 55,6%-ə yüksəlmişdir. Ümumilikdə, 2023-cü ildə ölkədaxli qeyri-nağd ödənişlərin həcmi əvvəlki illə müqayisədə ilk dəfə olaraq 49 milyard manata çatmışdır. Rəqəmsal bankçılığın sürətli inkişafını göstərən digər göstərici odur ki, hazırda Azərbaycanda ödənişlərin 80%-dən çoxu elektron qaydada həyata keçirilir. Bu dinamika rəqəmsal bank əməliyyatlarının uçot sistemində düzgün və effektiv əks etdirilməsi mövzusunun nə nə dərəcədə aktual olduğunu təsdiqləyir. Bu məqalənin məqsədi rəqəmsallaşmanın bank uçot sisteminə təsirini və Azərbaycan təcrübəsi əsasında rəqəmsal bank əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsinin mövcud vəziyyətini təhlil etməkdir. Tədqiqat çərçivəsində rəqəmsal bankçılığın anlayışı, ölkəmizdə bank sisteminin rəqəmsallaşma prosesi, rəqəmsal əməliyyatların uçotu ilə bağlı beynəlxalq və yerli standartlar araşdırılacaq, elektron ödənişlərin və onlayn xidmətlərin uçot sistemində necə əks olunduğu izah ediləcək, həmçinin rəqəmsal əməliyyatların şəffaflığı və daxili nəzarət məsələləri müzakirə olunacaqdır.

Azərbaycan bank sistemində rəqəmsallaşma prosesi.

Azərbaycan Respublikasında bank sektorunun rəqəmsallaşması son dövrlərdə sürətlə baş verən proselərdəndir. Ölkəmizdə müasir rəqəmsal bankçılıq xidmətlərinin formalaşması nisbətən yeni olsa da, qısa müddətdə əhəmiyyətli irəliləyiş əldə olunmuşdur. Hazırda fəaliyyət

göstərən bankların böyük əksəriyyəti müştərilərinə onlayn(veb platforma üzərindən) və mobil tətbiq vasitəsilə bank xidməti təqdim edir. Mobil elektron proqramlar Azərbaycanın bank sisteminin inkişafında mühüm rol oynayır, çünki banklara müştərilərinə daha rahat, səmərəli və innovativ xidmətlər təklif etmək imkanı verir [2]. Demək olar ki, bütün iri banklar internet bankçılıq sistemini qurub və mobil tətbiqlər vasitəsilə müştərilərə hesabların idarəedilməsi, ödənişlərin aparılması, onlayn kredit müraciətləri kimi imkanları təmin edirlər. Bu sahədə banklar arasında rəqabət mühiti də formalaşıb: istifadə rahatlığı, tətbiqlərin funksionallığı, təhlükəsizlik səviyyəsi kimi meyarlara görə banklar daim öz rəqəmsal xidmətlərini təkmilləşdirməyə çalışırlar. Beləliklə, innovasiya səviyyəsinin artırılması, bank sektorunun daha rəqabət qabiliyyətli və müştəri məmnuniyyətinə yönəlmiş olmasına imkan verəcəkdir [3].

Ölkənin aparıcı bankları bir sıra innovativ rəqəmsal həlləri də sınaqdan keçirmişdir. Məsələn, "PaşaBank" internet bankçılıq platformasında onlayn növbə tutma, parkinq ödənişləri, hətta xarici səfirliklərdən arayışların alınması kimi qeyri-ənənəvi xidmətləri rəqəmsal müstəviyə keçirən ilk banklardan olmuşdur. "Rabitəbank" isə müştərilərə sosial şəbəkələr üzərindən pul köçürmələri etməyə imkan verən xidmət təqdim etməyə başlamışdır – müştəri öz Facebook hesabı vasitəsilə digər şəxsin hesabına banka getmədən vəsait göndərə bilir ki, bu Avropada tətbiq olunan müasir texnologiyaların ölkəmizdə adaptasiyasına nümunədir. Bundan başqa, Azərbaycan Beynəlxalq Bankı filialların funksiyasını qismən əvəzləyə bilən rəqəmsal kiosk tipli qurğu "ƏləmAtik" cihazlarını istifadəyə vermişdir. Bu özünüxidmət köşkləri vasitəsilə müştərilər bank əməkdaşı ilə videoəlaqə formatında məsləhət ala, həmçinin bir sıra tranzaksiyaları (nağd pul yatırma/çəkmə, köçürmə, ödəniş) özləri həyata keçirə bilirlər. Belə həllər bank infrastrukturunu optimallaşdıraraq böyük ofis xərclərinə qənaət etməyə, müştərilərə isə yaxınlıqda filial olmasa belə bır sıra bank əməliyyatlarını yerində icra etməyə imkan yaradır.

Rəqəmsallaşma prosesi yalnız ayrı-ayrı bankların təşəbbüsü ilə deyil, eyni zamanda dövlət və tənzimləyici qurumların strateji proqramları çərçivəsində də təşviq olunur. 2018-2020-ci illər üzrə qəbul olunmuş rəqəmsal ödənişlərin inkişafına dair dövlət proqramı çərçivəsində ölkədə nağdsız ödənişlərin həcminin artırılması, müvafiq infrastrukturun gücləndirilməsi üzrə tədbirlər həyata keçirildi. 2020-ci il oktyabrın 1-dən etibarən Azərbaycan Respublikası Mərkəzi Bankı real vaxt rejimində çalışan Ani Ödəniş Sistemini (AÖS) istismara verdi. Bu sistem vasitəsilə həm fiziki, həm də hüquqi şəxslər bank hesablarından istifadə etməklə, hətta ödəniş kartı olmadan, sürətli köçürmələr həyata keçirə bilirlər. AÖS vasitəsilə QR kod və digər yeni texnologiyalarla identifikasiya apararaq birbaşa hesabdan ödənişlərin edilməsi mümkün olmuşdur. Bu addım ölkəmizdə ödəniş ekosistemnin inkişafında mühüm mərhələ hesab olunur. 2024-cü ilin yanvarında AMB "2024-2026-ci illərdə maliyyə sektorunun inkişaf strategiyası"nı təsdiq etmişdir. Bu strategiyanın əsas istiqamətlərindən biri maliyyə bazarının rəqəmsallaşdırılmasının sürətləndirilməsi və milli ödəniş sisteminin liberallaşdırılmasıdır. Strateji planda açıq bankçılıq (Open Banking) platformasının ölkədə tətbiqi xüsusi yer tutur. Açıq bankçılıq prinsipinə əsasən banklar ixtisaslaşmış vasitəçilərə müştərilərin icazəsi ilə müştəri hesablarına çıxışı təmin edirlər. Bu konsepsiya vəzifələri aydın şəkildə bölüşdürməyə imkan verir – banklar yenə də pul vəsaitlərinin saxlanılmasını, köçürmələrin icrasını, kreditlərin verilməsini və digər lisenziyalaşdırılan fəaliyyətləri həyata keçirirlər. Vasitəçilər isə müştərilərə öz vəsaitlərinə daha rahat qaydada sərəncam verməyə kömək edirlər [4].

Rəqəmsallaşma prosesinin uğurlu nəticələrini statistik göstəricilərdə təsdiqləyir. 2023-cü ildə internet bankçılıq kanalı ilə aparılan əməliyyatların həcmi əvvəlki ilə nisbətdə 12% artmış, mobil bankçılıq üzərindən əməliyyatların həcmi isə iki dəfə artmışdır. Rəqəmsal bankçılıq həm də pandemiya dövründə öz səmərəliyini sübut etmişdir. 2014-cü ildə mobil bankçılıq istifadəçilərinin sayı 180 min nəfər olduğu halda, 2020-ci ildə bu rəqəm 1 milyon nəfəri ötmüşdür. 2023-cü ildə rəqəm 2,4 milyon nəfərə çatmış, 2024-cü ildən hal-hazırdakı dövrədək

3 milyon nəfər təşkil edir. COVID-19 pandemiyası dövründə rəqəmsal bank xidmətlərinə tələbatın artması prosesi daha da sürətlənmişdir [5].

Rəqəmsal əməliyyatların uçotu üzrə beynəlxalq və yerli standartlar.

Kommersiya banklarında həyata keçirilən əməliyyatların uçotu ümumi mühasibat standartları çərçivəsində həyata keçirilir. Rəqəmsal platformalar üzərindən aparılan əməliyyatlar da mühasibat uçotunun fundamental prinsiplərinə tabedir yəni hər bir əməliyyat müvafiq qaydada ikitərəfli yazılışla mühasibat sistemində əks olunur. Beynəlxalq səviyyədə bankların maliyyə uçotu Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS/İFRS) ilə tənzimlənir. Ölkəmiz də bu qlobal standartlara qoşulmuşdur. 2004-cü ildə qəbul olunmuş "Mühasibat uçotu haqqında" qanuna 2018-ci ildə edilmiş dəyişikliklərə əsasən, ölkədə ictimai əhəmiyyətli qurumlar, o cümlədən banklar maliyyə hesabatlarını İFRS standartlarına uyğun olaraq tərtib etməlidir. Yəni kredit təşkilatları üçün beynəlxalq uçot standartlarının tətbiqi məcburidir. Bu keçidin təmin olunması məqsədilə Maliyyə Nazirliyi İFRS standartlarının azərbaycan dilinə tərcüməsini və tətbiqini koordinasiya edir. İFRS standartları rəqəmsal və ya ənənəvi üsulla aparılmasından asılı olmayaraq, bütün bank əməliyyatlarının mühasibat uçotunda düzgün təsnifatı və dəyərinin ölçülməsi üçün vahid prinsipləri müəyyən edir.

Yerli mühasibat standartları baxımından, Azərbaycan bankları üçün ayrıca milli standartlardan çox, İFRS-ə ekvivalent hesab olunan tələblər mövcuddur. Azərbaycan Mərkəzi Bankının müvafiq normativ akti "Banklarda mühasibat uçotunun aparılması Qaydaları" məhz "Banklar haqqında" və "Mühasibat uçotu haqqında" Qanunlara və MHBS tələblərinə uyğun hazırlanmış, bankların uçot siyasətinin təşkili qaydalarını müəyyən edir. Bu qaydalara əsasən, bank aktivləri, öhdəlikləri, kapitalı və maliyyə nəticələri İFRS -ə uyğun şəkildə uçotda əks etdirilməlidir. Habelə, Mərkəzi Bankın nəzarətedici orqan kimi hər bir bankdan Milli Mühasibat Uçotu Standartları yox, məhz beynəlxalq standartlar üzrə maliyyə hesabatlarını təqdim etməsini tələb etməsi praktiki olaraq yerli standartların bank sektorunda tətbiqinin ikinci planda olduğunu göstərir. Bununla belə, kiçik bank olmayan müəssisələr üçün MMUS mövcuddur, lakin kommersiya bankları birbaşa tam İFRS yanaşmasına keçid ediblər.

Rəqəmsal bank əməliyyatlarının xarakterik xüsusiyyətləri bəzən uçot siyasətində yeni yanaşmalar tələb edir. Məsələn, banklar rəqəmsal platformaların qurulmasına çəkilən xərcləri (proqram təminatı, İT infrastrukturu və s.) uyğun uçot siyasəti ilə idarə etməlidirlər – burada İFRS çərçivəsində bu kimi xərclərin uyğun uçot siyasəti ilə idarə etməlidirlər. İFRS çərçivəsində bu kimi xərclərin uyğun kriteriyalar ödənildikdə qeyri-maddi aktiv kimi kapitalizasiyası və ya birbaşa xərclərə silinməsi kimi məsələlər ortaya çıxır. Bank sektorunda beynəlxalq standartlarla yanaşı, yerli qanunvericilikdə də rəqəmsal maliyyə əməliyyatlarına dair yeni tələblər formalaşdırılmaqdadır. Bank sektorunda beynəlxalq standartlarla yanaşı, yerli qanunvericilikdə də rəqəmsal maliyyə əməliyyatlarına dair yeni tələblər formalaşdırılmaqdadır. "Ödəmə xidmətləri və ödəniş sistemləri haqqında" Qanun rəqəmsal ödəniş ekosistemini tənzimləyən əsas yerli standart xarakteri daşıyır. Bu qanunla ilk dəfə olaraq ödəniş xidmətlərinin göstərilməsi üçün bank olmayan təşkilatlarına da lisenziya verilməsi, elektron pul emitentlərinin fəaliyyəti, ödəniş sistemlərinin iş prinsipləri kimi məqamlar hüquqi çərçivəyə salındı. Yeni qanun ödəniş sahəsində beynəlxalq praktikaya uyğun normativ bazanın yaradılması istiqamətində mühüm addımdır və rəqəmsal əməliyyatların uçot və hesabatlılıq sistemi üzərində dolayısı təsir göstərir yəni bütün rəqəmsal ödəniş əməliyyatları artıq qanunla müəyyən edilmiş subyektlər tərəfindən aparılmalı və müvafiq nəzarət orqanlarına hesabatlar təqdim olunmalıdır. Bütün bunlarla yanaşı, hazırda rəqəmsal valyutalar (məsələn, kripto-valyutalar və ya Mərkəzi Bank rəqəmsal valyutası CBDC) sahəsi Azərbaycanda hüquqi tənzimləmə ilə əhatə olunmayıb. Mərkəzi Bank rəsmiləri rəqəmsal valyuta (CBDC) tətbiqi imkanlarını araşdırdıqlarını bildirmişlər bu istiqamətdə digər ölkələrin təcrübəsi öyrənilir və konseptual model üzərində tədqiqatlar aparılır. Lakin konkret uçot standartının hazırlanması üçün öncə hüquqi

statusun müəyyənləşməsi tələb olunur. Mövcud vəziyyətdə Azərbaycan banklarında rəqəmsal əməliyyatların uçotu beynəlxalq standartlara tam inteqrasiya olunmuş şəkildə aparılır.

Elektron ödənişlərin, onlayn əməliyyatların və mobil bank xidmətlərinin uçot sistemində əks olunması.

Ənənəvi uçot sistemində çoxsaylı kitablar, jurnallar, ledcerlərin, pul sənədlərinin işlənilməsi və sonradan yoxlanılması həm böyük miqdarda işçi qüvvəsi və maliyyə vəsaiti tələb edir. Uzun müddət davam edən iş yükü zamanı yaranan yorğunluq və səhvlər mühasibat uçotunu təhrif edir [6]. Rəqəmsal kanallar vasitəsilə həyata keçirilən bank əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi, prinsip etibarilə, ənənəvi əməliyyatların uçotundan fərqlənmir. Lakin burada vacib olan məqam əməliyyatın icra forması ilə uçot sisteminin inteqrasiyasının təmin olunmasıdır. Müasir banklarda əsas bank sistemi bütün kanallardan (filial, ATM, internet bank, mobil bank və s.) həyata keçirilən əməliyyatları bir mərkəzi məlumat bazasında cəmləyir. Məsələn, müştəri internet bankçılıq vasitəsilə öz hesabından başqa bir hesaba köçürmə əməliyyatı apardıqda, bu əməliyyat anında bankın uçot sisteminə daxil olur: müştərinin hesabı müvafiq məbləğdə azaldılır (debet), qarşı tərəfin hesabı artırılır (kredit) və sistem tərəfindən əməliyyatın tarixi, vaxtı, təyinatı kimi detallar qeyd edilir. Bu proses tam avtomatlaşdırılmış şəkildə baş verir və insan müdaxiləsi minimaldır. Nəticədə, elektron kanallar üzərindən aparılan əməliyyatların uçotu real vaxt rejimində və səhvsiz şəkildə həyata keçirilir.

Elektron ödənişlər yəni POS terminallar, ödəniş kartları və ya onlayn ödəniş sistemləri vasitəsilə gerçəkləşdirilən tranzaksiyalar bir qayda olaraq birbaşa bankın müvafiq hesablaşma sisteminə bağlı olur. Məsələn, bir mağazada POS terminal vasitəsilə ödəniş edildikdə, əməliyyat həmin an banklararası kart prosessinq mərkəzindən keçir və bankın hesablarında alıcının hesabından vəsaitin çıxılması, satıcının hesabına mədaxil olması kimi yazılışlar elektron şəkildə qeydiyyata alınır. Bu zaman əməliyyatın təfərrüatları (ticarət nöqtəsinin İD-si, POS terminalın nömrəsi, əməliyyatın vaxtı və məbləği və s.) da uçot sisteminə inteqrasiya olunur. Onlayn əməliyyatlar (internet vasitəsilə aparılan ödənişlər, elektron kommersiya tranzaksiyaları) da eyni şəkildə bank sistemində müxabirləşmə şəklində əks olunur: müştərinin hesabından çıxan məbləğ onun bankının müxbir hesabında başqa bankın müxbir hesabına köçür, əgər eyni bankdadırsa daxili hesablar arasında keçir və sonda vəsaiti alan tərəfin hesabı müvafiq məbləğdə artırılır. Mobil bankçılıq xidmətləri vasitəsilə məsələn, mobil tətbiqdən mobil telefon balansının artırılması, kommunal ödənişlərin edilməsi, kartdan karta köçürmələrin aparılması kimi bütün bu əməliyyatlar bankın ümumi elektron uçot sisteminə avtomatik ötürülür. Bankların prossesinq mərkəzləri və arxa ofis sistemləri elə qurulub ki, rəqəmsal kanallardan gələn məlumat axını ani olaraq mühasibat modullarına inteqrasiya edilir. Bu, tranzaksiya həcminin çox olduğu şəraitdə belə əməliyyatların uçotunun dolğun aparılmasına imkan verir.

Mühasibat uçotu baxımından elektron ödəniş və onlayn əməliyyatların ayrıca hesablar vasitəsilə izlənməsi də praktikada mövcuddur. Banklar daxilində elektron məxaric və mədaxil hesabları, aralıq tranzit hesabları müəyyən edilir ki, rəqəmsal kanallardan daxil olan çoxsaylı əməliyyatlar öncə həmin hesablarda toplanır və gün sonunda yekunlaşdırılaraq müxabirləşdirilir. Məsələn internet vasitəsilə gün ərzində həyata keçirilən 1000-dən çox ödənişi banka ayrı-ayrılıqda emal etməkdənsə, sistem onları qruplaşdırıb toplu şəkildə mühasibat yazılışlarına çevirə bilər. Bu, texniki effektivlik üçündür və yekunda hər bir müştərinin hesabına təsir edən əməliyyat onsuz da ayrıldıqda əks olunur. Sadecə bank səviyyəsində, sistem daxilində qruplaşdırma aparıla bilər ki, bu da uçot işinin optimallaşdırılması deməkdir. Bütövlükdə, elektron və mobil bank əməliyyatlarının uçot sistemində əks etdirilməsi müasir bankların əsas kitab sisteminin bir parçasıdır. Bankın əsas kitabı artıq tamamilə rəqəmsal platforma üzərində qurulub və bütün girişlər elektron mənbədən gəlir. Kağız daşıyıcılarla aparılan əməliyyatların payı cüzi qalıb və onlar da dərhal elektron sistemə daxil edilir. Belə ki, bank filialında

müştərinin apardığı əməliyyat da kassir tərəfindən kampüter sisteminə daxil edilir və nəticədə digər rəqəmsal əməliyyatlarla eyni cür uçota alınır. Yəni, artıq mühasibat uçotu sistemi üçün əməliyyatın filialda, yoxsa onlayn kanalda aparılmasının fərqi yoxdur bankın vahid inteqrasiya edilmiş məlumat sistemi bütün əməliyyatları toplayıb eyni qaydada maliyyə uçotuna işləyir.

Nəzərə almaq lazımdır ki, rəqəmsal əməliyyatların sayının kəskin artması bankların uçot sistemlərinə olan tələblərini yüksəldir. Böyük həcmli tranzaksiyaların emalı zamanı sistemlərin davamlılığı və düzgünlüyü kritik əhəmiyyət daşıyır. Banklar mütəmadi olaraq öz mühasibat proqram təminatlarını yeniləyir, server gücünü artırır və məlumat bazalarının təhlükəsizliyini təmin edirlər ki, elektron əməliyyat axını heç bir itkiyə və ya gecikməyə məruz qalmasın. Məsələn, real vaxt rejimində miliyonlarla mikro əməliyyatın uğurla uçota alınması üçün banklar həm texniki, həm də metodoloji cəhətdən hazırlıqlı olmalıdırlar. Azərbaycanda son dövrdə müşahidə edilən odur ki, banklarımız bu yükün öhdəsindən gəlməkdədir. 2023-cü ildə onlayn ticarət sistemində aparılan əməliyyatların sayı 2,2 dəfə artaraq 563,4 milyona çatmışdır, POS terminallar vasitəsilə nağdsız ödənişlərin sayı isə 2,1 dəfə artaraq 416,6 milyona yüksəlmişdir. Bu kimi irihəcimli artımlara rəğmən bankların uçot sistemləri uğurla adaptasiya olunur və əməliyyatların uçotu tam şəkildə aparılır. Bu bank sektorunun texnoloji hazırlığının və düzgün uçot infrastrukturunun göstəricisidir.

Rəqəmsal əməliyyatların şəffaflığı və daxili nəzarət aspektləri.

Bank əməliyyatlarının rəqəmsallaşması maliyyə sistemində şəffaflığın artmasına mühüm təsir göstərir. Bütün əməliyyatlar virtual mühitdə və iz buraxaraq həyata keçirilməsi onların izlənməsini və sənədləşməsini asanlaşdırır. Nağd pulla aparılan əməliyyatlarda mövcud ola biləcək qeyri-rəsmi məqamlar (məsələn, uçota alınmadan nağd ödənişlərin dövriyyəsi) rəqəmsal ödəniş kanallarında minimuma endirilir. Hər bir elektron tranzaksiya bank sistemində qeydiyyata düşdüyündən, sonradan həmin əməliyyatın izi rahatlıqla sürülə bilir. Bu isə həm bankdaxili audit, həm də tənzimləyici orqanların nəzarəti baxımından şəffaflığı təmin edir. Aparılan araşdırmalar göstərir ki, rəqəmsal ödənişlərin həcminin artması "kölgə iqtisadiyyatı"nın miqyasını kiçildir və nəticədə dövlət büdcəsinə vergi daxilolmalarını artırır. Rəqəmsal ödənişlərdən istifadə olunması ilə istehlak əməliyyatlarının hamısının rəsmiləşməsi təmin olunur, beləliklə qeyri-qanuni dövriyyənin qarşısı alınır, biznes mühütində sağlam rəqabət güclənir. Məhz bu əməliyyatların virual şəkildə həyata keçirilməsi onların şəffaflığını artırır ki, dövlətin bu sektoru stimullaşdırmasının ən mühüm səbəblərindən biri də elə budur. Şəffaflığın artması həm də bank sisteminə olan etibarı gücləndirir yəni müştərilər öz əməliyyat tarixçələrini onlayn şəkildə görür, hər xərcləmənin və mədaxilin izahını əldə edə bilir, həmçinin dövlət orqanları tələb olunduqda nağdsız dövriyyə barədə dolğun məlumat toplaya bilirlər.

Rəqəmsal əməliyyatların artması banklarda daxili nəzarət və risk idarəetməsi aspektlərini də yeni səviyyəyə çıxarır. Ənənəvi bankçılıqda əsas nəzarət prosedurları insan faktoruna bağlı olmuşdursa (məsələn, kassir səhvlərinə nəzarət, filial meneceri tərəfindən əməliyyatların təsdiqi və s.) rəqəmsal bankçılıqda daxili nəzarət daha çox informasiya sistemləri üzərindən həyata keçirilir. Banklar öz İT infrastrukturuna real vaxt rejimində nəzarət modulları yerləşdirirlər. Məsələn, onlayn tranzaksiyalarda fırıldaqçılıq hallarını aşkarlamaq üçün avtomatik sistemlər tətbiq olumur. Müəyyən limitdən böyük məbləğdə və yaxud qeyri-adi tezlikdə əməliyyat aparılarsa, sistem dərhal onu şübhəli əməliyyat kimi qeyd edir və əlavə yoxlama tələb edir. Eyni zamanda, çoxamilli autentifikasiya metodları məsələn, SMS təsdiqi, mobil tətbiq təsdiqi, tokenlər sayəsində rəqəmsal kanallarda müştərinin icazəsi olmadan əməliyyat aparılması ehtimalı azaldılır. Bankların daxili audit və təhlükəsizlik bölmələri mütəmadi olaraq rəqəmsal əməliyyat gündəliklərini təhlil edərək hər hansı uyğunsuzluq və ya səlahiyyətsiz müdaxilə cəhdlərini müəyyən etməyə çalışır. Fasiləsiz audit praktiki olaraq həmişə yoxlamaların avtomatlaşdırılması və başdan-başa (ümumi) testləşdirmə deməkdir [9].

Bununla yanaşı, rəqəmsal bankçılıqla bağlı kibertəhlükəsizlik riskləri daxili nəzarətin prioritetinə çevrilib. Kiberməkan təhlükəsizliyi və məlumatların qorunması üzrə güclü hüquqi çərçivə yaradılmalıdır ki, banklar müştərilərinə təhlükəsiz və innovativ xidmətlər təqdim edə bilsinlər [7]. Banklar kiberhücumların qarşısını almaq üçün öz sistemlərini ən müasir təhlükəsizlik həlləri ilə təchiz edir, mütəmadi olaraq penterasiya testləri keçirir, əməkdaşlarını və müştərilərini məlumatlandırır. Bank sistemində kibertəhlükəsizliyə qarşı menecment sistemi daha da gücləndirilməli və bütövlükdə maliyyə bazarlarında mərkəzləşdirilmiş kibertəhlükəsizlik sistemi yaradılmalı, bu məqsədlə proqram təminatının təkmilləşdirilməsinə ayrılan vəsaitlərin həcminin artırılması təmin edilməlidir [8]. Ümumilikdə, rəqəmsal bankçılıq daxili nəzarət sistemlərinin həm daha şəffaf, həm də daha mürəkkəb olmasına yol açıb. Bir tərəfdən, bütün əməliyyatların qeydiyyatı olduğu üçün nəzarət etmək asanlaşıb, digər tərəfdən isə kiberrisklər və texnoloji asılılıq kimi yeni risklər meydana gəlib ki, bunların idarə olunması üçün banklar ixtisaslaşmış mütəxəssislər və vasitələr cəlb etməlidirlər. Ən yaxşı beynəlxalq təcrübələrə əsasən banklarda informasiya texnologiyaları üzrə audit funksiyası gücləndirilməli, risklərin ərkən xəbərdarlıq sistemləri qurulmalı, həmçinin personalın davamlı olaraq rəqəmsal təhlükəsizlik və etik məsələlər barədə təlimi təmin edilməlidir. Ölkəmizdə fəaliyyət göstərən banklar da son illərdə bu istiqamətdə addımlar atır, bır sıra banklar İSO 27001 informasiya təhlükəsizliyi sertifikatı almış, bəziləri müstəqil kibertəhlükəsizlik auditindən keçmişdir. Bu cür tədbirlər nəticə etibarilə rəqəmsal əməliyyatların təhlükəsizliyini artırır və mühasibat uçotunda yarana biləcək səhvlərin, yaxud qərəzli müdaxilələrin qarşısını alır.

Nəticə

Aparılan tədqiqat göstərir ki, rəqəmsallaşma bankların uçot sistemlərinə mühüm müsbət təsir göstərmiş, əməliyyatların daha şəffaf, sürətli və etibarlı aparılmasına şərait yaratmışdır. Azərbaycan bank sektoru qlobal rəqəmsal transformasiya meyillərinə uyğun şəkildə inkişaf edərək, qısa müddətdə nağdsız ödənişlərin üstünlük təşkil etdiyi bir maliyyə mühitinə keçid almışdır. Rəqəmsal bank əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsinin mövcud vəziyyəti onu deməyə əsas verir ki, banklarımız həm qanunvericilik, həm də texnoloji infrastruktur baxımından bu sahədəki çağrışların öhdəsindən uğurla gəlməkdədir. Bununla belə, hazırki mərhələdə bəzi problemlər və məhdudiyyətlərdə mövcuddur. Rəqəmsal kanallardan istifadə səviyyəsi artsa da, cəmiyyətin bütün təbəqələri eyni templə bu prosesə qoşulmayıb. Xüsusilə yaşlı nəslin və ucqar bölgələrdə yaşayan əhalinin rəqəmsal bankçılıqdan istifadəsi nisbətən aşağıdır. Bu da o deməkdir ki, hələ də müəyyən qədər nağd iqtisadiyyat mövcuddur və rəqəmsal əməliyyatların tam yayılması zaman alacaq. Digər bir problem kibertəhlükəsizlik risklərinin daim mövcud olmasıdır. Bank sisteminə edilə biləcək kiberhücumlar, məlumat oğurluğu cəhdləri və saxta əməliyyatlar sektoru təhdid edən ciddi risklərdir.

Nəticə olaraq vurğulamaq olar ki, rəqəmsal bank əməliyyatlarının uçot sistemində əks etdirilməsi sahəsində Azərbaycan təcrübəsi uğurlu transformasiya nümunəsi nümayiş etdirir. Əlbəttə, qarşıda duran əsas məqsəd rəqəmsal transformasiyanın risklərini düzgün idarə etməklə onun faydalarını maksimum reallaşdırmaqdır. Bu balans qorunduğu təqdirdə, rəqəmsal bank əməliyyatlarının uçotu sahəsində Azərbaycan həm regional, həm də qlobal miqyasda qabaqcıl təcrübədən birinə çevrilə bilər.

Ədəbiyyat

1. Sultanova, G.G. Azərbaycanda bank sektorunun rəqabətqabiliyyətliliyinin əsas parametrləri və innovasiyalardan asılılığı // - Bakı: AKU-nin Kooperasiya elmi-praktiki jurnalı - 2024. №2, - s. 81-88.
2. Əzizova, L. Mobil elektron tətbiqlərin Azərbaycanın bank sisteminin inkişafında rolu // - Bakı: ADİA-nın Elmi iş Beynəlxalq elmi jurnalı, - 2024. №3,- s. 184-189.

3. Abdulayev Ş.Ə., Əsgərova R.V. Bank işi. Ali məktəblər üçun dərslik. 2015 s. 40-43. – 458 s.
4. Heybətov, T. İnnovativ yanaşmaların Azərbaycanda tətbiqi: Açıq bankçılıq // - Bakı: Azərbaycan Banklar Assosasiyası, - 2021. – s. 1-7.
5. İsmayılov, A.H. Azərbaycan bank sektorunun innovativ məhsul və xidmət səviyyəsi: problemlər və həlli yolları // - Bakı: Tikintinin iqtisadiyyatı və menɛmenti jurnalı, - 2024. №1.
6. Bayramova, G. Süni intellektin kölgəsində mühasibat uçotunun perspektivi // - XI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu. Bakı, 2024, - s. 1199-1206.
7. Əliyev, M.F. Bankların inkişaf istiqamətləri. Monoqrafiya // - Bakı: Şərq-Qərb Nəşriyyat evi. 2017. – 120 s.
8. Xubanov, A.V. Müasir tələblər baxımından bank sektorunun inkişaf istiqamətləri: / iqtisad elmləri üzrə fəlsəfə doktoru avtoreferat. / - Bakı, 2024. – 36 s.
9. Məmmədova, N.A. Fasiləsiz daxili audit real vaxt rejimində bank risklərinin optimallaşdırılmasının mühüm vasitəsi kimi // - Bakı: Azərbaycan Universitetinin, İpək yolu jurnalı, - 2022. №2, - s. 79-87.

Məqalənin redaksiyaya daxilolma tarixi: 18.06.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.06.2025
Məqalənin çapa qəbul olunma tarixi: 04.07. 2025